**2004-cü il aprelin 29-da Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının Protokolu"nun nəzərə alınması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2004-cü il aprelin 29-da Vyana şəhərində imzalanmış "Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının Protokolu" nəzərə alınsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 21 oktyabr 2004-cü il
№463

**Azərbaycan Respublikası və Avstriya Respublikası arasında iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclasının**

**PROTOKOLU**

*(29-30 aprel 2004-cü il, Vyana)*

1998-ci il 13 noyabr tarixində Azərbaycan Respublikası Hökuməti və Avstriya Respublikası Federal Hökuməti arasında imzalanmış Sazişin 14-cü maddəsi-nə uyğun olaraq, Azərbaycan Respublikası Hökuməti və Avstriya Respublikası Federal Hökuməti tərəfindən yaradılmış iqtisadiyyat, kənd təsərrüfatı, sənaye, texnika və texnologiya sahələrində əməkdaşlıq üzrə Qarışıq Komissiyanın üçüncü iclası 2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində keçirilmişdir.

İclasa Azərbaycan tərəfindən Azərbaycan Respublikasının İqtisadi inkişaf naziri, Komissiyanın həmsədri cənab Fərhad Əliyev, Avstriya tərəfindən Avstriya Federal İqtisadiyyat və Əmək Nazirliyinin Xarici İqtisadi Əlaqələr üzrə Baş direktoru, Komissiyanın həmsədri cənab Yohan Zaks sədrlik edirdilər.

Hər iki Tərəfin nümayəndə heyətlərinin siyahısı bu Protokola əlavə olunur (Əlavə № 1 və № 2).

Hər iki Tərəf iqtisadi əlaqələrin ümumi müsbət inkişafını qeyd etdilər və iki ölkənin iqtisadi və ticarət potensialını nəzərə alaraq, əlaqələrin bundan sonra daha da möhkəmləndirilməsi arzusunda olduqlarım bildirdilər.

İclasın gündəliyində aşağıdakı məsələlərə toxunuldu:

**Azərbaycan Respublikası və Avstriya Respublikasının son 2 ildə iqtisadi inkişafının**

## XÜLASƏSİ

Hər iki Tərəf, ölkələrinin iqtisadi inkişafının vəziyyəti, habelə ölkələrin-də aparılan iqtisadi islahatlar barədə bir-birini məlumatlandırdılar.

Azərbaycan Tərəfi qeyd etdi ki, iqtisadi islahatların davam etdirilməsi, o cümlədən qanunvericilik bazasının təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması, dövlət mülkiyyətinin özəlləşdirilməsi, torpaq islahatlarının həyata keçirilməsi və sahibkarlığın inkişafı sahəsində dövlət tərəfindən həya-ta keçirilən tədbirlər nəticəsində Azərbaycanda ümumi daxili məhsul, əsas kapitala qoyulan investisiyalar, xarici ticarət dövriyyəsi əhəmiyyətli dərəcə-də artmışdır. Bununla yanaşı, yoxsulluğun azaldılması və iqtisadi inkişaf, regionların sosial-iqtisadi inkişafı və digər proqramların həyata keçirilməsi nəticəsində ciddi inkişaf meylləri müşahidə olunmaqdadır.

Azərbaycan Tərəfi növbəti illərdə Azərbaycan Hökuməti qarşısında duran sosial-iqtisadi siyasətin aşağıda qeyd olunan əsas istiqamətləri barədə Avstriya Tərəfini məlumatlandırdı:

Makroiqtisadi sabitliyin möhkəmləndirilməsi;

Dövlətin gəlirlərinin ilbəil artırılması və səmərəli istifadəsi;

Neft sektorundakı layihələrin davam etdirilməsi və neft gəlirlərinin regionların inkişafına, sosial problemlərin həllinə, yeni iş yerlərinin yaradılmasına yönəldilməsi;

Qeyri-neft sahələrinin yüksək templə inkişaf etdirilməsi;

İnfrastruktur və kommunal xidmətlər sahəsində islahatların davam etdiril-məsi və yeni layihələrin həyata keçirilməsi;

İnvestisiya və innovasiya proseslərinin gücləndirilməsi;

Özəlləşdirmənin sürətləndirilməsi, sahibkarlığın daha da inkişaf etdirilməsi;

Dünya iqtisadi sisteminə inteqrasiyanın sürətləndirilməsi;

Sosial təminat sisteminin gücləndirilməsi;

Təhsil, elm, mədəniyyət və idmanın daha da inkişaf etdirilməsi.

Avstriya Tərəfi öz iqtisadiyyatının dinamik inkişafını qeyd edərək bu inkişafın xüsusilə investisiyalar, xarici ticarət və turizm sahələrində müşahidə olunduğunu vurğuladı, eləcə də Avstriya Federal Hökumətinin strateji məqsədləri və dövlət büdcəsində kəsirin sıfra endirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər haqqında məlumat verdi.

Müzakirələr nəticəsində Tərəflər qərara gəldilər ki, Azərbaycanın və Avstriyanın müvafiq dövlət orqanları hər iki ölkənin iqtisadiyyatının müxtəlif sahələrinin mövcud durumu və inkişafı barədə müntəzəm olaraq bir-birini məlumatlandırsınlar.

### İkitərəfli əmtəə dövriyyəsinin vəziyyəti və perspektivləri, ikitərəfli xarici iqtisadi əlaqələrin prioritet sahələrinin müəyyən edilməsi

Tərəflər əmtəə dövriyyəsinin inkişafı barədə fikir mübadiləsi apardılar.

Avstriya Tərəfi statistik məlumatlara əsaslanaraq, ikitərəfli ticarətin həcminin 1998-ci illə müqayisədə 8 dəfədən çox artdığım və ticarət dövriyyə-sində ən yüksək rəqəmin 2001-ci ildə 77,1 mln. Avroya çatdığını qeyd etdi. Avstriyaya Azərbaycandan idxal ötən ildə 33 milyon Avroya, ixrac isə 9,1 milyon Avroya enmişdir. Azərbaycan Tərəfi Avstriya ilə ticarət balansının aktivinin 23,7 milyon Avro təşkil etdiyini vurğuladı.

Tərəflər ticarət dövriyyəsi ilə bağlı statistik göstəricilər arasındakı fərqin mövcudluğunu qeyd etdilər və bunun aradan qaldırılması ilə bağlı mütəmadi olaraq məlumat mübadiləsi aparacaqları barədə razılığa gəldilər.

Hər iki Tərəf ölkələr arasında əmtəə dövriyyəsinin nomenklaturunun genişləndirilməsinin böyük əhəmiyyət kəsb etdiyini və bunun üçün böyük imkanların mövcud olduğunu qeyd etdilər.

Tərəflər hər iki ölkənin böyük imkanlarından istifadə etməklə ticarət dövriyyəsinin artırılmasının zəruriliyini vurğuladılar və bunun üçün səy göstəril-məsi barədə razılığa gəldilər.

Belə ki, neft, kənd təsərrüfatı, kimya məhsullarının Azərbaycandan ixracının artırılması imkanlarının araşdırılması məqsədəuyğun hesab edildi. Avstriyadan Azərbaycana infrastrukturun inkişafında istifadə olunan avadanlıqların, yeni texnologiyaların, neft-kimya sənayesi üçün avadanlıqların, kənd təsərrüfatı avadanlığının, xalq istehlakı mallarının idxalının artırılması tövsiyə edildi. Eyni zamanda Tərəflər iki ölkə arasında ixrac edilməsi mümkün olan əmtəələrin və malların siyahısı üzrə mütəmadi informasiya mübadiləsinin aparılmasının zəruriliyini vurğuladılar.

Bununla yanaşı, Tərəflər iki ölkə arasında mal mübadiləsinin asanlaşdırılması, müştərək sərgilərin və biznes konfransların keçirilməsi və işgüzar səfərlərin həyata keçirilməsi barədə razılığa gəldilər.

Azərbaycan Tərəfinin ötən illər ərzində Bakıda Avstriya ticarət nümayəndəliyinin təsis edilməsi ilə bağlı irəli sürdüyü təklifinə cavab olaraq, Avstriya Tərəfi 2004-cü il martın 31-dən Bakıda Avstriyanın Ticarət Palatasının Marketinq bürosunun açıldığını qeyd etdi. Bu Marketinq bürosunun Avstriya İqtisadiyyat və Əmək Nazirliyinin vəsaitləri hesabına yaradılması vurğulandı.

## Avropa İttifaqının genişləndirilməsi çərçivəsində Avropa İttifaqı – Azərbaycan əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri

Tərəflər Avropa İttifaqı ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin inkişafı barədə fikir mübadiləsi apardı.

Azərbaycan Tərəfi 2003-cü ildə ölkənin əmtəələr üzrə xarici ticarət dövriyyəsinin 48,7%-nin Avropa Birliyi ölkələri ilə həyata keçirildiyini, bunun da 65,6%-nin ixracın və 32%-nin idxalın payına düşdüyünü bildirdi. Həmçinin Azərbaycan Tərəfi Avropa İttifaqı ilə ümumi ticarət dövriyyəsinin 2002-ci ilə nisbətən 36,9%, idxalın 6,3% və ixracın isə 3,1 dəfə artdığını qeyd etdi.

Avstriya Tərəfi qarşıda duran Avropa Birliyinin genişləndirilməsi istiqamətində Mərkəzi və Şərqi Avropa ölkələri ilə əlaqələri, Avropa Birliyinin genişləndirilməsi və Şərqə qapıların açılması sayəsində Azərbaycan və Avstriya üçün yeni imkanların açılacağı barədə məlumat verdi.

Avstriya Tərəfi Azərbaycanı müxtəlif Avropa Birliyi strategiyaları, misal olaraq "Yeni qonşular" strategiyası çərçivəsində dəstəkləməyə hazır olduğunu bildirdi.

### İnvestisiya əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri

Tərəflər investisiya əməkdaşlığının genişləndirilməsinin hər iki ölkə üçün əhəmiyyətini qeyd edərək, bu əməkdaşlığın mövcud vəziyyətinin ölkələrin potensialına uyğun olmadığını və investisiya əməkdaşlığının genişləndirilmə-si üçün böyük imkanların mövcud olduğunu bildirdilər.

Hər iki Tərəf daha sıx və intensiv əməkdaşlıqda, eləcə də Avstriya Respublikası və Azərbaycan Respublikasının iştirakı ilə, xüsusilə aşağıdakı sahələrdə birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını bildirdilər:

Neft-kimya sənayesi
Energetika
Aqrar sənaye və kənd təsərrüfatı
Ekologiya və ətraf mühitin mühafizəsi
Sənaye
Maliyyə, bank və sığorta sektorları
Səhiyyə
İnfrastruktur
Turizm

**Mütəxəssislərin ixtisasının artırılması və təkmilləşdirilməsi**

Azərbaycan Tərəfi Avstriya investisiyalarının ölkə iqtisadiyyatının prioritet sahələrinə cəlb edilməsinə maraq göstərdiyini bildirdi və Azərbaycanda gedən özəlləşdirmə prosesində Avstriya şirkətlərini fəal iştirak etməyə dəvət etdi. Bununla yanaşı, respublikamızda mövcud olan avtomobil yolları, kimya sənayesi, yüngül sənaye, kənd təsərrüfatı və emal sənayesi, turizm sahəsi üzrə yeni investisiya layihələri barədə məlumatları Avstriya Tərəfinə təqdim et-di. Avstriya Tərəfi bu məlumatların müvafiq dövlət və özəl qurumlara çatdırılacağını bildirdi.

İclasda iştirak edən Avstriya mütəxəssisləri (şirkət nümayəndələri) öz şirkətlərinin fəaliyyətləri barədə məlumat verdilər və Azərbaycan iqtisadiyyatının maraqlı sahələrində birgə müəssisələrin və nümayəndəliklərin yaradılmasında maraqlı olduqlarım bildirdilər.

Avstriya Tərəfi Avropa Birliyinin genişləndiyi bir ərəfədə Avropa Birliyi ölkələri üçün münbit bazar şəraitinin mövcudluğunu bildirərək Azərbaycan müəssisələrini Avstriyada investisiya qoymağa dəvət etdi.

**Digər sahələrdə əməkdaşlığın perspektivləri**

Tərəflər 2003-cü il 1-4 dekabr tarixində Vyana şəhərinin icra hakimiyyəti orqanının nümayəndələrinin Bakıya səfəri zamanı həmkarları ilə görüşün-də yeni texnologiyaların transferi və şəhər planlaşdırılması sahələrində müzakirə olunmuş əməkdaşlıq imkanlarını alqışladılar.

Tərəflər hər iki ölkədəki özəl sektorun ölkələrarası ticarət dövriyyəsinin kəmiyyət və keyfiyyətcə artırılması sahəsindəki səylərini gələcəkdə də dəstəkləyəcəklərini vurğuladılar, həmçinin hər iki dost ölkənin müştərək mənafelərinə xidmət edən qarşılıqlı faydalı olan birgə layihələrin həyata keçiril-məsində yardımçı olacaqlarına səy göstərəcəklərini ifadə etdilər.

Tərəflər həmçinin iki ölkə arasında iqtisadi əlaqələrin, o cümlədən qeyri-neft sektorunun genişləndirilməsi imkanlarının öyrənilməsi məqsədilə hər iki ölkənin özəl sektorunun nümayəndələrinin iştirakı ilə müxtəlif konfransların, təqdimatların, seminarların və digər tədbirlərin keçirilməsinin vacibliyini vurğuladılar.

Azərbaycan Tərəfi qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlərin dövlət proqramlarında, o cümlədən "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı"nda, "Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə Dövlət Proqramı"nda, "Turizmin inkişaf Proqramı"nda öz əksini tapdığını bildirdi. Həmçinin hal-hazırda Azərbaycan Hökumətinin qarşısında duran əsas vəzifələrdən biri olan iqtisadiyyatın həm sahəvi, həm də regional baxımdan tarazlı inkişafına nail olmaq üçün və yoxsulluğun

azaldılması məqsədilə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu ilə sıx əməkdaşlıq şəraitində hazırlanmış və fevral ayında ölkə başçısı tərəfindən təsdiq olunmuş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər) barədə ətraflı məlumat verildi. Azərbaycan Tərəfi bu Proqram çərçivəsində respublika əhəmiyyətli yeni layihələrin birgə həyata keçirilmə-si məqsədilə Avstriya Tərəfınə proqramın icrasında iştirak etməsi barədə müraciət etdi.

Avstriya Tərəfi öz müəssisələrini Avstriyanın İqtisadiyyat Palatası vasitə-silə məlumatlandıracağını bildirdi.

Azərbaycan Tərəfi aşağıdakıları xüsusi olaraq:

Sumqayıt şəhəri və Stayermark Federal Əyaləti arasında əməkdaşlığın davam etdirilməsi;

Azərbaycan Milli Elmlər Akademiyası ilə Avstriya Elmlər Akademiyası arasında 2003-cü ilin yanvar ayında elmi əməkdaşlıq haqqında Protokolun imzalanması;

Azərbaycan dövlət qulluqçuları və menecerlərinin Avstriyanın İqtisadiyyat və Əmək Nazirliyində seminar keçmələrini vurğuladılar.

Azərbaycan Tərəfi, Azərbaycan Respublikasının dövlət iqtisadi orqanlarının mütəxəssislərinin təcrübəsinin artırılması üçün Bakı şəhərində müvafiq tədris mərkəzinin yaradılması məsələsinə baxılmasını Avstriya Tərəfindən xahiş etdi. Avstriya Tərəfi hal-hazırda bu sahədə əməkdaşlığın imkan xaricində olduğunu bildirdi.

Müştərək Komissiyanın iclası çox işgüzar və dostluq şəraitində keçdi və Tərəflər ölkələrimiz arasında əlaqələrin inkişafında və gücləndirilmə-sində Müştərək Komissiyanın xüsusi rolunu qeyd etdilər. Azərbaycan Tərəfi göstərilən qonaqpərvərliyə görə Avstriya Tərəfinə minnətdarlığını bildirdi.

Bu Protokol Vyana şəhərində, 2004-cü il aprel ayının 29-da iki əsl nüsxədə, hər biri Azərbaycan və alman dillərində imzalanmışdır. Hər iki mətn eyni hüquqi qüvvəyə malikdir.

**Azərbaycan-Avstriya Komissiyasının**
**həmsədri Fərhad ƏLİYEV**

**Avstriya-Azərbaycan Komissiyasının**
**həmsədri Yohan ZAKS**

**2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində**
**Azərbaycan-Avstriya Qarışıq Komissiyasında iştirak edən**
**Azərbaycan nümayəndə heyətinin**

**F. Əliyev V. Sadıqov**

**İ. Fətizadə Ə. Şahyev**

**İ. Rzabəyov R. Məcidov Ə. Qasımov Ç. Əliyev S. Məmmədov N.Qurbanova**

**SİYAHISI**

- İqtisadi inkişaf naziri
- Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfiri
- Maliyyə nazirinin müavini
- Sahibkarlığın inkişafı departamentinin direktor müavini, İqtisadi İnkişaf Nazirliyi
- Yanacaq-energetika əməliyyatları baş idarəsinin rəisi, Yanacaq və Energetika Nazirliyi
- İqtisadi proqnozlaşdırma şöbəsinin rəisi, Kənd Təsərrüfatı Nazirliyi
- Nəqliyyat siyasəti sektorunun rəisi, Nəqliyyat Nazirliyi
- Xarici əlaqələr baş idarəsinin rəisi, "Azərbaycan Hava Yolları" Dövlət Konserni
- İkitərəfli əməkdaşlıq sektorunun əməkdaşı, İqtisadi İnkişaf Nazirliyi
- III katib, Azərbaycan Respublikasının Avstriya Respublikasındakı Səfirliyi

**2004-cü il 29-30 aprel tarixlərində Vyana şəhərində**
**Azərbaycan-Avstriya Qarışıq Komissiyasında iştirak edən**
**Avstriya nümayəndə heyətinin**

**SİYAHISI**

Yohan **Zaks**

Haydemaria **Gürer**

Otto **Zax**

Suzanna **Beşaner**

Vemer **Dayani**

Xristian Müller

Günter **Salzman**

Aleks **Belşan**

Silviya **Moor**

Raynhard **Rentmayster**

Riçard **Hasman**
Karl de **Kolle**

Yohannes **Vehrnıan**

Paul **Hauke**

Elgün **Niftahyev**

- Qarışıq Komissiyanın həmsədri, İqtisadiyyat və Əmək Nazirliyinin xarici iqtisadi əlaqələr üzrə baş direktoru
- Avstriyanın Azərbaycandakı Fövqəladə və -Səlahiyyətli Səfiri
- Enerji siyasəti idarəsinin rəisi, İqtisadiyyat və Əmək Nazirliyi
- İqtisadiyyat və Əmək Nazirliyinin Azərbaycan üzrə referenti, İqtisadiyyat və Əmək Nazirliyi
- Horizontal müəssisə siyasəti idarəsinin əməkdaşı, İqtisadiyyat və Əmək Nazirliyi
- Mərkəzi və Şərqi Avropa və Avropa Birliyinin genişləndirilməsi idarəsinin əməkdaşı, İqtisadiyyat və Əmək Nazirliyi
- Avropa Birliyinin genişləndirilməsi və Mərkəzi, Şərqi və Cənub Şərqi Avropa ölkələri ilə xarici iqtisadi əlaqələr idarəsi, İqtisadiyyat və Əmək Nazirliyi
- MDB ölkələri ilə əməkdaşlıq şöbəsinin rəisinin müavini, Kənd və Meşə Təsərrüfatı, Ətraf Mühit və Su Təminatı Nazirliyi
- İkitərəfli əməkdaşlıq və beynəlxalq təşkilatlar şöbəsi, Sosial Təminat, Nəsillər və İstehlakçıların Müdafiəsi Nazirliyi
- Yük daşımaları şöbəsinin rəisi, Nəqliyyat, İnnovasiya və Texnologiya Nazirliyi
- Xarici əlaqələr şöbəsi, Vyana meriyası
- İxracın maliyyələşdirilməsi şöbəsinin rəisi, Avstriya İqtisadiyyat Palatası

- Protokol idarəsinin rəisi, İqtisadiyyat və Əmək Nazirliyi
- Protokol idarəsinin əməkdaşı, İqtisadiyyat və Əmək Nazirliyi

- Tərcüməçi

**Şirkətlərin nümayəndələri və mütəxəssislər**

| | |
|---|---|
| Haymo **Qradişniq** | - Xarici əlaqələr üzrə menecer, Avstriya Hava Yolları |
| Valter **Rayman** | - Xarici əlaqələr üzrə menecer, Avstriya Hava Yolları |
| Tino **Terraneo** | - Austrian Health Care Systems&Engineering MMC-nin icraçı direktoru |
| Artur **Pfayfer** | - Satış və marketinq məsələləri üzrə regional direktor, Tech Hydro şirkəti |
| Aleksandr **Qranat** | - İdarə heyətinin xüsusi müvəkkili, UTA Telekom Səhmdar Cəmiyyəti |
| Raynhard **Vind** | - MDB ölkələri üzrə regional baş menecer, Bank Austria Creditanstalt |
| Ryszard **Golec** | - MDB ölkələri üzrə regional baş menecer, Bank Austria Creditanstalt |
| Tomas **Vistavel** | - Fachspedition Russia A-Logistik Ltd. Dr.Lassmann GmbH |
| Paul **Vinkler** | - Direktor, Siemens nəqliyyat sistemləri MMC. |